| Xəstəlik sinifi (XBT-10) | M - Sümük-əzələ sistemi xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı(İSİM) | Süleymanov Vaqif |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| M60.0. | İnfeksion miozit |

## Müalicə

"Miyozit" termini - zolaqlı skelet əzələsindəki hər hansı bir iltihab prosesinə aiddir.Terapiyanın əsasını analgetik və iltihabəlehinə dərmanlar, ilk növbədə qeyristeroidlər təşkil edir. Onlar yerli olaraq (kremlər, məlhəmlər, gellər) və ya sistemli şəkildə tətbiq olunur (əsasən parenteral)

Ambulator şəraitdə istifadə olunan dərmanlar

| Adı | Buraxılış forması | Tövsiyə olunan dozalar |
|---|---|---|
| Fenilbutazon (phenylbutazone) məlhəmi | Xarici istifadə üçün məlhəm | İltihab ocağının üstündən sürtməklə gündə 2-3 dəfə tətbiq olunur. Müalicə kursu 7-10 gün |
| Meloksikam (meloxicam) kremi | Xarici istifadə üçün krem | Gündə 1-3 dəfə xarici istifadə üçün az miqdarda gel (3-5 sm) bədənin iltihablı və ya ağrılı hissəsinin dərisinə nazik təbəqə tətbiq olunur |

| | | |
|---|---|---|
| Ketoprofen (ketoprofen) gel | Xarici istifadə üçün gel | Gündə 1-3 dəfə xarici istifadə üçün az miqdarda gel (3-5 sm) bədənin iltihablı və ya ağrılı hissəsinin dərisinə nazik təbəqə tətbiq olunur |
| Tenoksikam (tenoxicam) | 20 mq-lıq həblər | Daxilə 20 mq (1 həb) gündə 1 dəfə yeməkdən sonra, uzun müddət istifadəsi zamanı - gündə 10 mq |
| Nimesulid (nimesulide) | Həblər, süspensiya hazırlamaq üçün qranullar | Böyüklər üçün birdəfəlik doza 50-200 mq (orta hesabla 100 mq, maksimal doza gündə 400 mq) təşkil edir. Gündə 2 dəfə daxilə qəbul edilir. |
| Diklofenak (diclofenac) | Həblər | Tövsiyə olunan başlanğıc doza - gündə 100 mq təşkil edir. |
| İbuprofen (İbuprofen) | Kapsullar, həblər | Böyüklər və 12 yaşdan yuxarı uşaqlar:daxilə 1 kapsula (200 mq), çeynəmədən, gündə 3-4 dəfəyə qədər. |
| Meloksikam (meloxicam) | Rektal şamlar | Rektal şamların gündə bir dəfə 7,5 mq dozada istifadəsi tövsiyə |

| | | |
|---|---|---|
| | | olunur. Daha ağır hallarda, 15 mq dozada şamlardan istifadə etməkmümkündür. Maksimal gündəlik doza 15 mq-dan çox olmamalı. |
| Diklofenak (diclofenac) | Əzələdaxili inyeksiya üçün 75 mq məhlul | Sutkalıq doza 1 ampula (75 mq) gündə 1 dəfə. Ağır hallarda, bir neçə saatdan sonra 75 mq-lıq 2 ampula inyeksiya edilə bilər (ikinci inyeksiya kontralateral çanaq nahiyə-sində aparılmalıdır. |
| Tenoksikam (tenoxicam) | Vena və əzələdaxil iinyeksiya üçün məhlul hazırlamaq üçün liyofilizat | Qısa müddətli (1-2 gün) müalicə üçün gündə bir dəfə 20 mq dozada v/d və ə/d istifadə olunur. Terapiyanın uzadılmasına ehtiyac olduqda tenoksikamın müafiq dozada daxili dərman formalarına keçmək olar. |
| Meloksikam (meloxicam) | 7,5 mq əzələdaxili inyeksiya üçün məhlul. | Gündə 7,5 mq ə/d inyeksiya üçün məhlul. Lazım gələrsə, bu doza gündə 15 mq qədər artırıla bilər |

## Ədəbiyyat

https://www.provrach.ru/article/15064-taktika-lecheniya-miozita-21-m01-19